**"Balaca muğam ifaçılarını, adətən, "Qarabağ bülbülləri" adlandırırlar. Bu gün Qarabağın sakinləri olan məcburi köçkünlərin düşərgələrində böyüyən uşaqlar daha muğam oxumurlar, onların arasında belə Qarabağ bülbülləri son dərəcə azdır. Oxumaq üçün onlara Qarabağ dağları, Qarabağ təbiəti, Qarabağ torpağı lazımdır..."**

**Mehriban Əliyeva,**
**Heydər Əliyev Fondunun prezidenti,**
**YUNESKO və İSESKO-nun xoşməramlı səfiri,**
**Milli Məclisin deputatı**

# Azərbaycan bülbülləri

**Bu da sonsuz həyəcan və səbirsizliklə gözlədiyimiz gün! Üçüncü televiziya muğam müsabiqəsində finala çıxmış 6 nəfər arasında yerlər müəyyənləşdirilir, qaliblər elan olunur: Mirələm Mirələmov və Səbinə Ərəbli- birinci, Məmməd Nəcəfov və Kamilə Nəbiyeva- ikinci, Ariz Hüseynov və Nigar Şabanova üçüncü yeri tuturlar.**

Münsiflər heyəti adından çıxış edən xalq artisti Əlibaba Məmmədovun nitqi hamımızın ürək sözləri, minnətdarlıq duyğusu kimi səslənir. O, ölkəmizdəki sabitliyə, əmin-amanlığa görə ölkə başçısına, belə bir gözəl layihəyə görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya, münsiflər heyətinə, Azərbaycan Televiziyasının rəhbərliyinə və tamaşaçılara dərin təşəkkürünü bildirir...

Təbii ki, bunlar müsabiqənin heç vaxt unutmayacağımız, daim yaddaşımızda yaşayacaq son səhifələridir. Qaliblər əvvəlcə "Qarabağ şikəstəsi"ni, ardınca bütün salondakılarla birlikdə himnimizi səsləndirirlər. Beləcə, heç kəs istəməsə də müsabiqə başa çatır. Axı hər şeyin başlanğıcı kimi məntiqli bir sonu da olur. Burada hissə qapılmağın faydası yoxdur. İndi ən ayıq düşüncə növbəti müsabiqənin təşkilinə yönəlməlidir...

50 milyondan çox azərbaycanlını birləşdirən, televiziya qarşısında əyləşdirən, sevincimizi bölüşdürüb, kədərimizi paylaşdıran bu müsabiqənin qısa hesabatını aparmaq isə bir yazar kimi bizim borcumuzdur.


Mirələm Mirələmov


Səbinə Ərəbli

Etiraf etmək lazımdır ki, 2005-ci ildən start götürən televiziya muğam müsabiqəsi bütün iştirakçıları və tamaşaçıları ilə hamının yaxşı yadında qalıb. Bu müsabiqələrdə böyük sənətə vəsiqə alan gənclər çoxdur və bütün bunlar artıq vaxtilə keçirilən seçimin nə qədər yerində və ədalətli olmasından xəbər verir. Sanki hər dəfə ifadan-ifaya daha inamla və daha sənətkarlıqla tamaşaçı gözündə dəyişən, böyüyən bu gənclər belə bir həqiqəti hamıya elan etdilər: həqiqi sənət heç bir qaydaya, ölçüyə-biçiyə sığmır, oxunduqca genişlənir, genişləndikcə müdrikləşir.


Kamilə Nəbiyeva


Məmməd Nəcəfov

İfaçıların təmsil etdiyi bölgələr genişdir. Münsiflər heyətinin səbrlə, diqqətlə, qayğı ilə seçdiyi bu gənclər Azərbaycanın müxtəlif muğam məktəblərini təmsil etməklə yanaşı, ən əsas və vacib olanı unutmurlar. Bu, dahi Üzeyir bəyin işləyib qoyduğu muğam qaydalarına və prinsiplərinə sədaqətdir!

Bu mənada, 2011-ci il fevralın 14-dən başlayaraq start götürən 3-cü televiziya muğam müsabiqəsi çox yüksək səviyyədə təşkil olundu və sözün həqiqi mənasında ölkəmizin mədəni həyatında əsl hadisəyə çevrildi.

Bunu aşağıdakı amillər də sübut edir.

Qeyd edək ki, Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun layihəsi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən bu müsabiqəyə uzun seçim mərhələsindən sonra yalnız 20 nəfər vəsiqə qazana bilmişdi.

Müsabiqənin açılış mərasimi Beynəlxalq Muğam Mərkəzində keçirildi. Müsabiqə ilə bağlı bütün materiallar, məlumatlar 4 ay ərzində mütəmadi olaraq Az.TV və "Mədəniyyət" kanalı ilə canlı yayımlanırdı.

Ekran qarşısında əyləşənlər sözün həqiqi mənasında dincəlir, düşünür, xoş ovqatla yüklənirdilər. Yüksək diqqət və qayğıya cavab olaraq musiqiçilər bütün istedad və bacarıqlarını ortaya qoyur, ecazkar səslərin qanadlarında onları mübhəm xəyallar aləminə aparırdılar.

İfaçıların çıxışları kimi geyimləri də göz oxşayır, könül sevindirirdi. Əslində, bu ilahi musiqilərin-muğamların başqa libasda, qeyri-geyimdə ifa olunacağını gözləmir və təsəvvür də etmirdik. Nə yaxşı ki, hər şey istədiyimiz şəkildə alındı, arzuladığımız tərzdə yekunlaşdı.

Hərçənd, biz fərqli məqamların da şahidi olmuşuq. Amma bunlar tamam başqa layihələr, başqa "yarışmalar", başqa seçimlərdir.

**Heydər Əliyev Fondunun dəstək və təşkilatçılığı ilə gerçəkləşdirilən layihələr isə heç kəsə sirr deyil ki, daim öz möhtəşəmliyi və dolğunluğu ilə fərqlənir. Fond Azərbaycan xalqının kökü çox qədimlərə gedib çıxan digər sənət xəzinələri kimi muğama da sahib çıxaraq xeyli vaxtdır bu sahəyə yaxından himayədarlıq edir. Fondun ilk layihələrindən biri tək "Qarabağ xanəndələri" adlı albomun nəfis tərtibatla 2005-ci ilin martında Parisdə YUNESKO-nun qərargahında, xoşməramlı səfirlərin illik toplantısında təntənəli şəkildə təqdim olunması da buna bir nümunədir.**

Bu fakt böyük ideoloji-siyasi məzmun kəsb etməklə yanaşı, Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu da bir daha bütün dünyaya nümayiş etdirdi. Bu, adi musiqi layihəsi olmaqdan əlavə, ermənilərin yalanını və xəyanətini ifşa etmək baxımından da mühüm əhəmiyyət daşıdı.

Hələ o vaxt albomun təqdimat mərasimində çıxış edən Mehriban xanım Əliyeva Azərbaycanda bir neçə muğam məktəbinin olduğunu, onların arasında



Nigar Şabanova Ariz Hüseynov

təqdirəlayiqdir.

Azərbaycan mədəniyyətinin incisi olan muğamın dünyada geniş təbliği məqsədilə Bakıda müasir üslubda Beynəlxalq Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi fondun qlobal layihələri sırasında mühüm yer tutur.

2005-ci il avqustun 24-də Azərbaycan Prezidenti İlham Əliyev və YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın iştirakı ilə əsası qoyulan Beynəlxalq Muğam Mərkəzinin 2008-ci ilin dekabr ayında təntənəli açılışı olmuşdur.

Artıq xeyli vaxtdır burada gənc ifaçılar Azərbaycan musiqi mədəniyyətinin gözəl nümunələri ilə tanış olur, muğam sənətinin incəliklərinə yiyələnirlər, eyni zamanda, mərkəzdə bu sənətin görkəmli nümayəndələrinin-muğam ustalarının konsertləri, gecələri keçirilir, beynəlxalq konfrans və festivallar təşkil olunur. Fond regionlarda muğam mərkəzlərinin yaradılmasına da ciddi dəstək verir. 2008-ci ilin sentyabrında fondun təşəbbüsü əsasında Ağcabədidə Üzeyir bəy Hacıbəylinin adını daşıyan Qarabağ Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi buna bir nümunədir.

Qarabağ muğam məktəbinin də aparıcı muğam məktəblərindən sayıldığını diqqətə çatdırmışdı.

Azərbaycan muğamının YUNESKO-nun "Bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilməsi də bilavasitə bu fəaliyyətin nəticəsidir.

2008-ci il sentyabrın 17-də "Gülüstan" sarayında Heydər Əliyev Fondunun "Üzeyir dünyası" və "Azərbaycan muğamı ensiklopediyası" layihələrinin təqdimatı milli mədəniyyətə diqqət və qayğının gözəl nümunəsinə çevrildi.

2009-cu ilin mart ayında Heydər Əliyev Fondunun xətti ilə keçirilən Beynəlxalq muğam festivalı da Azərbaycan mədəniyyətinin, musiqisinin bütün dünyada tanıdılması və təbliği istinqamətində mühüm tədbirlərdən biri kimi yadda qaldı.

**Heydər Əliyev Fondu Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə birgə xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi və intellektual irsə böyük diqqət və həssaslıqla yanaşır, milli mədəniyyətin dünya arenasına çıxmasında və təbliğində fəal iştirak edir. Fondun prezidenti Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində görülən böyük işlər göz qabağındadır.**

Bu baxımdan, Heydər Əliyev Fondunun prezidentinin şəxsi təşəbbüsü ilə 2005-ci ildən başlayaraq keçirilən və Azərbaycan televiziyası ilə canlı yayımlanan muğam müsabiqələri də xalqımızın milli sərvəti olan muğamın təbliği işində olduqca

Sonda üçüncü televiziya muğam müsabiqəsinin uğur və obyektivliyini müəyyənləşdirən bir məqamın da üzərində dayanmaq istərdik. Hər dəfə olduğu kimi yenə də qalibi aşkara çıxaran "SMS"lər deyil, hamının yaxşı tanıdığı, sevdiyi peşəkarlardan ibarət münsiflər heyəti oldu.

**Münsiflər heyətinin üzvləri-xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Mənsum İbrahimov, Ramiz Zöhrabov və Nadir Axundovun ifalarla bağlı hər sözü, qeydi, zarafatı, atmacası belə həm tamaşaçı, həm də gənc ifaçıların özləri tərəfindən razılıqla, çox vaxt alqışlarla qarşılanırdı. Səbəb...**

**Səbəb çox sadə idi - illərlə qazanılan peşəkarlıq, nüfuz və ən başlıcası, obyektivlik!!!**

**Y. HİDAYƏTOĞLU**